# Azərbaycan Prezidentinin Laçına səfəri və söylədiyi fikirlər beynəlxalq mətbuatın diqqət mərkəzindədir




Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 21-də Laçın şəhərində Azərbaycan bayrağını ucaltması Türkiyə kütləvi informasiya vasitələri tərəfindən günün aktual mövzusu olaraq geniş işıqlandırılıb.

"Anadolu" və İHA xəbər agentlikləri, "TRT Haber", "TGRT", "TRT Avaz", "CNN Türk" və başqa telekanallar, "Milliyet", "Hurriyet", "Takvim", "Star" və digər qəzetlər başda olmaqla, ölkənin aparıcı media qurumları Azərbaycanın dövlət başçısının Laçın səfərinin təfərrüatlarını geniş şəkildə Türkiyə ictimaiyyətinə təqdim edib. Orijinal video və fotolarla yayılan xəbərlərdə diqqətə çatdırılır: "Azərbaycan Prezidenti İlham Əliyev növbəti dəfə işğalçı Ermənistana xəbərdarlıq edib ki, heç bir revanş cəhdlərinin faydası yoxdur".

Müxtəlif sərlövhələrlə yayılan informasiyalarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə və ondan sonrakı proseslərə müraciət olunub. Həmçinin Prezident İlham Əliyevin Laçın şəhərindən verdiyi mesajların siyasi mahiyyəti analiz edilib.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin erməni işğalından azad edilmiş Laçın rayonuna növbəti səfəri Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

aktual.ge, 24news.ge, kavkasia.net, interprees.ge portalları Azərbaycan Prezidentinin bu səfəri ilə bağlı silsilə materiallar dərc edib.

Azərbaycanın dövlət başçısının çıxışından sitatlarla verilən materiallarda deyilir: "Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Bizi heç kimin çağırışı, heç bir bəyanatı, heç bir təşəbbüsü dayandırmayacaq. İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz sərhədlərə çıxdıq. Əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, onların ərazisinə girmişik, bunun heç bir əsası yoxdur. Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq".




Mətbuat həmçinin Azərbaycan tərəfinin 95 erməni hərbçisinin nəşinin qarşı tərəfə təhvil verməsi barədə materiallar yayıb.

*AZƏRTAC*

Azərbaycan.- 2022.- 23 sentyabr.- S.5.